## *İvan ŞELOKOV*

### SUAL

Bir tanış alimdən soruşdum ki mən:
-Səbəbi nə,
İnsan daim ümidlə boylanır keçmişinə,
Gələcəkdənsə qorxur?
Soruşdum ki, nədəndi
Külə çöp uzadanda,
Külü qarışdıranda
Xəfifcə gülümsəyir,
Tonqal alovlananda
O, möcüzə gözləyir?

Sonra mən bu alimə
Daha bir sual verdim:
-Nə üçün məqsəd qoyur
İnsan öz qarşısına
Sonda məqsəd naminə
Mütləq əl atacaqsa
Patrondaşa, patrona…
Bir xeyli eynəyinin
Şüşələrini sildi
Sonra cib dəsmalını
İri, enli alnının
Qırışında gəzdirdi
Boylandı sola, sağa
Başladı hörümçək tək
Sözdən tor toxumağa…
Amma bu zaman, birdən
Qəfil tufan başladı
Göylərdən dolu yağış
Ələndi qurşun kimi…
Bax beləcə bu hava
Sözlə tor toxumaqdan
Xilas etdi alimi:
Göylərin bu yağmuru
Məni də xilas etdi
Mən bu tanış alimin
Naşı cavablarını
Dinləyəsi olmadım
Sakitcə vidalaşıb
Mən ondan aralandım
O getdi öz işinə
Mən getdim öz işimə.

* * *

Qanadı bərkiməmiş quşlar
Uçur cənuba
Qanadı bərkiyənlər Şimala tələsirlər
-Hardadı etibarlı, ən sadiq dostun?
-Ata ocağında o itib-batıb
Qanadı bərkiməmiş quşlar
Hamıya və hamıya
İradə göstərirlər
Qanadı bərkiyənlər-ancaq iradəsizlik.
-Hansı istəklərlə çırpınır qəlbin?
-İnamla. Ümidlə. Məhəbbət ilə.

Qanadı bərkiməmiş quşlar uçdular Şərqə
Qanadı bərkiyənlər üzü Qərbə yön aldı
-Hanı sənin Vətənin? Ucalt səsini, oğlum!
-Mən onun qoxusunu unutmuşam çoxdandı
Qanadı bərkiməmiş quşlar Cənuba uçur
Qanadı bərkiyənlər tələsirlər Şimala



-Hardadı etibarlı, ən sadiq dostun, oğlum?
-Ata ocağındadı, başında da min bəla…
Qanadı bərkiməmiş quşlar göy üzündədir
Qanadı bərkiyənlər göy üzündən qorxdular..
-De, indi hansı istəklə çırpınır qəlbin oğlum?
-Ürəyimdə məhəbbət, ümid, bir də inam var!

* * *

***Yuri Polyakova***

Sezilmir bu gecədə
Nə kədər, nə yamanlıq
Biçənəkdən əsir meh-
Yazın nəfəsi ılıq.

Yaltaqlıq, saxtakarlıq
Bu gecədə sezilmir
Təbiətlə savaşdan
Bu can əsla üzülmür.

Bəlkə biz yanılırıq
Bu gecəni öyəndə?
Yalan da var, yaman da,
Bu gecənin içində.

## MƏNİM QUBERNİYAM, YAZ!

Mənim quberniyam, yaz,
Bizə nə verilibsə,
Hamısını sözə düz.
Əclaflarla dahilər
Necə şərab gillədir
Əyləşərək üzbəüz.

Diplomuna tüpürmüş
Eynəkli oğlanların
Gizlicə -orda-burda
Nəşə çəkməsini yaz

Əcnəbilərlə birgə
Hər cür alver eləyən
Cavan madonnaların
Nazı-qəmzəsini yaz.

Sən yaz, atam balası
Ağrıdan ürək şişir
Sələflərin savaşı
Yenə də gerçəkləşir.

Bizim xətrimizə yox
Onların naminə yaz-

Onlar sual, onlar sirr,
Gözəl Rusiya, kimə
Hazırlayır bu əsr?

* * *